# Həftəlik
# *Bülleten*



## 114
## 24 Oktyabr 2025

Xəbərlər
Tədbirlər
Görüşlər
Tender və lahiyələr
Dünya tikililəri

ATMİA

info@atmia.az www.atmia.az

**Qazaxıstanla Azərbaycan birgə evlər tikəcək, transformator buraxacaqlar.**

Qazaxıstan və Azərbaycan birgə müəssisələrin yaradılmasında maraqlıdır. Bu barədə Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Azərbaycan Prezidenti İlham Əliyev ilə mətbuata bəyanatında bildirib.

Qazaxstan Prezidenti qeyd edib ki, hər iki tərəf birgə müəssisələrin yaradılmasında maraqlı olduqlarını bildirib və bu məsələdə mühüm irəliləyiş əldə olunub: "Məsələn, transformatorların birgə istehsalına başlanılması planlaşdırılır. Yaşayış və infrastruktur obyektlərinin tikintisi davam etdirilir, gəmiqayırma sahəsində birgə layihələr işlənib hazırlanır”. Onun sözlərinə görə, hər iki ölkənin hökumətlərinə bu sahələrə nəzarət etmək və mümkün qədər tez bir zamanda sənaye sahəsində əməkdaşlığın inkişafı üçün plan və ya Yol xəritəsi qəbul etmək tapşırılıb.



**Taleh Kazımov/AMB mənzil qiymətlərinin artımı barədə: "Bu məsələni daxildə bir neçə dəfə müzakirə etmişik".**

Bakıda mənzil qiymətləri bahalaşır. Bakı şəhərində mənzil qiymətlərində, xüsusilə yeni tikililərdə müşahidə olunan davamlı artım Mərkəzi Bankın diqqət mərkəzindədir. Bu məsələ Mərkəzi Bankın İdarə Heyətinin faiz dəhlizinin parametrlərinə dair qərarın açıqlanmasına həsr olunmuş mətbuat konfransında müzakirə olunub. Mövzu ilə bağlı sualları cavablandıran Mərkəzi Bankın sədri Taleh Kazımov bildirib ki, qiymət artımı Mərkəzi Bank tərəfindən diqqətlə izlənilir : “Biz artıq bu ildən mənzil bazarındakı qiymətləri təhlil edirik, proses nəzarətimiz altındadır. Hazırda artım 10,9% təşkil edir. Düşünürük ki, bu həm tələbin artması, həm də xərc amillərinin təsiri ilə formalaşır.” Sədr əlavə edib ki, Mərkəzi Bank daxilində bu məsələ bir neçə dəfə müzakirə olunub və ipoteka kreditləşməsinin genişlənməsi ilə bağlı təşəbbüslər həyata keçirilir: “Bizim marağımız ondadır ki, əhalinin mənzil alışı üçün əlavə maliyyə məhsulları yaradılsın və ipoteka portfeli artsın. Bu, həm sosial baxımdan, həm də iqtisadi artım nöqteyi-nəzərdən çox vacibdir.”



**"Dostluq" kinoteatrının tarixi abidə statusu almasına müsbət rəy verilməyib, bərpaya yararsızdır.**

Ötən ilin sonlarında restavrasiya ediləcəyi ilə gündəmə gələn "Dostluq" kinoteatrının tarixi abidə statusu almasına, həmçinin bərpa edilməsinə müsbət rəy verilməyib. Binaya baxış keçirildikdən sonra onun qəzalı vəziyyətdə və bərpaya yararsız olduğu qənaətinə gəlinib. Azərbaycan Memarlar İttifaqının İdarə Heyətinin sədri Elbay Qasımzadə binanın bərpası istiqamətində keçirilən müsabiqə barədə qeyd edib ki, yekun nəticədə binanın tarixi abidə kimi qiymətləndirilmədiyi görünür: "Biz müsabiqə yolu ilə, bir növ, ictimai rəyi, peşəkar memarları mövzuya cəlb etmişdik və nəticə belə oldu ki, bina tarixi abidə kimi qiymətləndirilmir. Təqdim olunan layihələrə baxanda aydın görünür ki, orada binanın əvvəlki forması qoruyan, olduğu kimi saxlayan layihə yoxdur. Təyinatından tutmuş görünüşünə qədər hər bir detal dəyişdirilib. Yəni təqdim olunan layihələrin heç birində bərpa elementi yox idi. Bir sözlə, qənaət budur ki, "Dostluq" kinoteatrı tarixi abidə statusuna layiq deyil". Məlumat üçün qeyd edək ki, "Dostluq" kinoteatrının bərpası üçün ötən il Azərbaycan Memarlar İttifaqı tərəfindən açıq müsabiqə elan olunmuşdu. Bu ilin martında müsabiqə başa çatmış və qaliblər elan olunmuşdu.



**Sahibkarlar obyektlərin sənədləşdirilməsi ilə bağlı yaradılan imkandan istifadə edə bilərlər.**

Azərbaycan Prezidentinin "Qeyri-yaşayış təyinatlı bəzi tikinti obyektlərinin istismarına icazə verilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 14 iyun 2023-cü il tarixli Fərmanının icrasına başlanıldığı dövrdən 14.10.2025-ci il tarixinədək 18.523 müraciət daxil olub. İstismara qəbul olunmuş 4.956 obyektin 3.931-nə dövlət reyestrindən çıxarış verilib. Əmlak Məsələləri Dövlət Xidmətinin yaydığı məlumatda bildirilir ki, tikinti-quraşdırma işləri 2023-cü il iyunun 1-dək başa çatmış, şəhərsalma və tikinti qanunvericiliyinin ayrı-ayrı tələblərinə tam riayət olunmadan inşa olunmuş qeyri-yaşayış təyinatlı obyektlərin sənədlərinin qəbulu prosesi müvafiq icra hakimiyyəti orqanları tərəfindən hazırda davam edir və bu müddət 1 yanvar 2026-cı il tarixində başa çatır. Sahibkarlardan xahiş olunur ki, bu müddətədək tələb olunan sənədlərlə müraciət etsinlər və mövcud imkandan yararlansınlar. Qeyri-yaşayış binalarına mülkiyyət hüququnu təsdiq edən sənədlərin verilməsi sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə, daşınmaz əmlak bazarının canlanmasına geniş imkanlar yaradır. Belə ki, sahibkarlar mülkiyyət hüququ dövlət qeydiyyatına alınmış əmlakını girov, sığorta, alqı-satqı və digər əməliyyatlar üçün istifadə edə bilərlər. Bildirilib ki, sözügedən Fərmanda edilmiş dəyişikliyə əsasən bu cür obyekt sahibləri 1 yanvar 2026-cı ilədək tələb olunan sənədlərlə Fövqəladə Hallar Nazirliyinin regional mərkəzlərinə müraciət edə bilərlər.



**İşğaldan azad olunmuş ərazilərdə faydalı qazıntıların yayılma arealları müəyyən edilir.**

Azərbaycanda kosmik şəkillərin incələnməsi ilə işğaldan azad olunmuş ərazilərdə faydalı qazıntıların yayılma meydanlarının müəyyənləşdirilməsi istiqamətində işlər aparılır. Bunu Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Geoloji Kəşfiyyat Agentliyinin İdarə Heyətinin sədrinin müavini Şahin Ataşov Bakıda keçirilən "Kosmosdan gələn imkanlar: Kosmik müşahidəmizin sosial-iqtisadi inkişafa töhfəsinin 10 ili" adlı tədbirdə bildirib. Onun sözlərinə görə, hazırda bu işlər yüksək texnoloji yanaşma ilə davam etdirilir: "Gələcəkdə bunun süni intellektlə də əvəzlənərək, daha qabaqcıl texnologiyanın tətbiqi ilə daha tez və rahat əldə olunması imkanları araşdırılır. Kosmos Agentliklə ilə artıq bu məsələ müzakirə olunur və birgə işin aparılması nəzərdə tutulub". Sədr müavini bildirib ki, işğaldan azad edilmiş ərazilərdə əvvəllər də (işğaldan öncə) daimi monitorinqlər aparılıb: "Həmin ərazilərdə mədənlərin istismarı ilə ətraf mühitə atılan tullantıların miqdarı, hasil edilən faydalı qazıntıların ilkin həcmi haqqında məlumatlar var. Faydalı qazıntıların öyrənilməsi, geoloji sahənin öyrənilməsi, yerin təkinin təsirinin öyrənilməsi üçün kosmik görüntülərin xüsusi əhəmiyyəti var".



**Qırğızıstanda Azərbaycanla birgə fondun dəstəyilə kovrolin istehsalı müəssisəsi yaradılacaq.**

Azərbaycan-Qırğızıstan İnkişaf Fondu və Qırğızıstanın "Orion Grand" şirkəti ölkədə müasir kovrolin istehsalı üzrə müəssisəsinin yaradılması üçün investisiya sazişi imzalayıblar. Bu barədə Qırğızıstanın İqtisadiyyat və Ticarət Nazirliyi məlumat yayıb. Bildirilib ki, sazişdə müasir kovrolin istehsalı müəssisəsinin yaradılması üzrə layihənin maliyyələşdirilməsi nəzərdə tutulur. Bu, Qırğızıstanda ilk belə layihədir, çünki indiyə qədər kovrolin tamamilə xaricdən idxal edilirdi. Layihənin həyata keçirilməsi yerli xalça istehsalına başlanılmasına, yeni iş yerlərinin açılmasına və ölkənin sənaye potensialının gücləndirilməsinə imkan verəcək. Layihənin ümumi dəyəri 3,2 milyon ABŞ dolları təşkil edir. Bunun da 1 milyon ABŞ dolları Azərbaycan-Qırğızıstan İnkişaf Fondunun hesabına maliyyələşdiriləcək.

Müəssisə məhsulların təkcə Qırğızıstanın daxili bazarına deyil, həm də Özbəkistan, Tacikistan, Azərbaycan və digər ölkələrə ixracına yönəldiləcək.



**ATMİA üzvləri “LEF Network Azerbaijan” layihəsinin 6-cı ticarət missiyası çərçivəsində Finlandiya, Latviya və Estoniyanın aparıcı şirkətləri ilə B2B görüşlərdə iştirak etdilər.**

22 oktyabr 2025-ci il tarixində Landmark Biznes Mərkəzində baş tutan, “LEF Network Azerbaijan” layihəsinin 6-cı ticarət missiyası çərçivəsində Finlandiya, Latviya və Estoniyanın aparıcı şirkətləri ilə B2B görüşlər keçirildi.

ATMİA üzvlərinin də iştirak etdiyi görüşlərdə müxtəlif sahələrdə fəaliyyət göstərən yerli və xarici şirkət nümayəndələri bir araya gələrək, əməkdaşlıq imkanlarını müzakirə edib, ixrac və idxal potensialını artırmaq, həmçinin texnoloji və innovativ tərəfdaşlıqlar qurmaq istiqamətində danışıqlar aparıldı.

Bu cür təşəbbüslər ölkəmizin biznes mühitinin beynəlxalq əlaqələrinin gücləndirilməsinə, yerli şirkətlərin qlobal bazarlara inteqrasiyasına və qarşılıqlı iqtisadi inkişafın təşviqinə mühüm töhfə verir.





**Hörmətli Sahibkarlar,**

İSO Məclisi üzvlərinin Bakıya səfəri çərçivəsində keçiriləcək B2B görüşlərdə Türkiyənin 120-dən çox aparıcı şirkətinin nümayəndələri ilə üz-üzə görüşmək fürsətini qaçırmayın!

Nə əldə edəcəksiniz?

- Türkiyənin aparıcı şirkətləri ilə birbaşa danışıqlar
- Yeni bazar imkanları - İxrac və idxal potensialınızı artırın
- Bazarlarınızı genişləndirmək fürsəti - Uzunmüddətli biznes əlaqələri qurun
- Real istehsal və ticarət əlaqələri - Bir gündə onlarla potensial tərəfdaşla tanış olun

**Tarix:** 31 oktyabr 2025

**Saat:** 09:30 – 13:00

**Məkan:** Hilton Baku Hotel

**QEYD:** İştirakçılar arasında logistika, təhsil, hüquq və məsləhət xidmətlərinin təmsil olunmadığını nəzərə almağınızı xahiş edirik.

İştirak ÖDƏNİŞSİZDİR! **Son qeydiyyat tarixi:** 25 oktyabr 2025

**Qeydiyyat linki:** https://forms.gle/tM2SGy5YnHzfNfsN9



**Hörmətli Assosiasiya üzvləri,**

Afrika-Azərbaycan Əməkdaşlıq Təşkilatının təşəbbüsü ilə 28 oktyabr saat 16:00-da Efiopiya Ticarət Palatası nümayəndələri ilə onlayn (zoom) formatda görüş təşkil ediləcək. Görüşün məqsədi Azərbaycan və Efiopoya iqtisadi əlaqələrini genişləndirmək, milli markalarımızı Afrika bazarında tanıtmaqdan ibarətdir.
Görüş zamanı şirkətiniz haqqında 3 dəqiqəlik təqdimat təqdim etməyiniz xahiş olunur.
Görüş Bakı vaxtilə 16:00-da keçiriləcək.
Görüşün dili: ingilis
Bu görüş Afrika bazarına çıxış üçün əla fürsət olacaq və Efiopiyada etibarlı tərəfdaşlarla tanış olmağa imkan yaradacaq.
**Qeydiyyat üçün:** 050 250 95 17

# SƏRGİ/KONFRANS/FORUM

**Sərginin adı: BURSA INTERNATIONAL MARBLE BLOCK FAIR 2025**

**Tarixlər: Noyabr 2025**

**Məkan: Tüyap Bursa Beynəlxalq Sərgi və Konqres Mərkəzində, Bursa (Türkiyə)**

Bursa Beynəlxalq Mərmər Blokları Sərgisi. Mərmər blokları və ağır avadanlıqlar qapalı ərazilərdə nümayiş etdirilir.

**Sərginin adı: SAUDI BUILD 2025**

**Tarixlər: 03 - 06 Noyabr 2025 -ci il,**

**Məkan: Ər-Riyad Beynəlxalq Sərgi Mərkəzi, Ər-Riyad (Səudiyyə Ərəbistanı)**

Saudi Build, tikinti sənayesi mütəxəssislərini, həll təminatçılarını və təchizatçılarını innovativ həllər ilə tanış etməyi hədəfləyir. Layihə sahibləri, memar mühəndisləri, spesifikasiya mütəxəssisləri tədbirdə onların ehtiyaclarını ödəyəcəklər.

**Sərginin adı: TURKMEN CONSTRUCTION 2025**

**Tarixlər: 03 - 05 noyabr 2025-ci il**

**Məkan: CCİ Türkmənistan Binası, Aşqabad (Türkmənistan)**

Türkmənistanda Beynəlxalq Tikinti Sənayesi Sərgisi. Sənaye forumu həm yerli, həm də dünyanın aparıcı tikinti şirkətləri üçün böyük bir nümayiş və danışıqlar platformasına çevrilib.

**Sərginin adı: BUILDING INDUSTRY SOLUTIONS 2025**

**Tarixlər: 04 - 06 noyabr 2025-ci il,**

**Məkan: Ptak Varşava Sərgisi, Varşava (Polşa)**

Polşa beynəlxalq tikinti sənayesi ticarət sərgisi. Varşava tikinti maşınları sərgisi tikinti sənayesində fəaliyyət göstərən sahibkarların mövcud ehtiyaclarını ödəyən bir tədbirdir.

**Bu ərazilərdə yerləşən köçkün obyektləri təmir ediləcək - TENDER KEÇİRİLİR.**

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin Tikilməkdə olan Müəssisələr Müdiriyyəti açıq tender elan edib.

Müsabiqə Bakı, Mingəçevir, Xırdalan şəhərlərində və İsmayıllı rayonunda məcburi köçkünlərin məskunlaşdığı obyektlərdə cari təmir işlərinin satınalınmasını əhatə edir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Səfərəliyev Ruslan, aparıcı mühasib
Email: t_tmm@list.ru
Əlaqə telefonu: +994 12 431 47 45



**ASTARA RAYON İCRA HAKİMİYYƏTİ- TENDER KEÇİRİR.**

Astara Rayon İcra Hakimiyyəti açıq tender elan edib.
Tender Astara şəhərində ictimai yaşayış binalarının əsaslı təmirini əhatə edir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Rasim Məmmədov, Sektor müdiri-baş mühasib
Email: muhasibat@astara-ih.gov.az
Əlaqə telefonu: +994 25 228 11 51



**AZƏRBAYCAN MEMARLIQ VƏ İNŞAAT UNİVERSİTETİ TENDERİ ELAN ETDİ.**

Azərbaycan Memarlıq Və İnşaat Universiteti açıq tender elan edib. Müsabiqə Universitetin 1 saylı tədris korpusunda qapı və pəncərələrin cari təmiri işlərinin satın alınmasını əhatə edir.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Sarvan Səfərov, Satınalma və təchizat şöbəsinin müdiri
Email: servan_685@mail.ru
Əlaqə telefonu: +994 12 510 39 45



**AZƏRBAYCAN RESPUBLİKASI QAÇQINLARIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRİN İŞLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ MƏNZİL İSTİSMAR DEPARTAMENTİ TENDERİ ELAN ETDİ.**

Azərbaycan Respublikası Qaçqınların Və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsi Mənzil İstismar Departamenti açıq tender elan edib. Elanda Bakı, Şirvan və Yevlax şəhərləri, Bərdə və Hacıqabul rayonlarında salınmış məcburi köçkün qəsəbələrində fərdi yaşayış evlərinin, mənzillərin, binaların fasad üzlüyünün və pilləkən qəfəslərinin təmiri qeyd edilib.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Fariz Abbasov, Sektor müdiri
Email: fariz.abbasov@idp.gov.az
Əlaqə telefonu:+994 12 430 15 30





**www.atmia.az**